# Erməni cəmiyyəti iflic olub

## Hərbi əməliyyatlar uzandıqca narazılıqlar daha da güclənəcək



**Şanlı Ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatları düşmən ölkəni iflic vəziyyətinə salıb. Hər gün məhv edilən, yaralanan erməni silahlılarının sayının artması ölkədə görünməmiş dərəcədə bədbinlik yaradıb. Elə kənd, şəhər yoxdur ki, ora məhv edilən əsgərlərin meyiti daxil olmasın.**



Bu da sözsüz ki, insanlara təsirsiz ötüşmür. Hadisələr belə axarda davam edəcəyi təqdirdə etirazların başlayacağı şübhəsizdir. İşğalçı ölkənin hərbi-siyasi rəhbərliyi əsgər çatışmazlığını müxtəlif mənbələr - diaspor, xarici ölkələrdən, xüsusilə Yaxın Şərq ölkələrindən olan muzdluları cəlb etmək və səfərbərlik elan etməklə həll etməyə çalışır. Lakin bu da effekt vermir. Pandemiya da bir tərəfdən vəziyyəti dözülməz edir. Müxtəlif ölkələrdən toplanan muzdlu döyüşçü resursu da tükənməkdədir. Çünki iqtisadi kollapsla, ərzaq qıtlığı ilə üzləşən Ermənistanın muzdlu döyüşçülərin "əmək haqqını" ödəmək üçün vəsaiti azalıb. Silah-sursat da azalır. Ordumuzun əks-zərbələri nəticəsində Ermənistan 130-dan çox tank və digər zirehli texnika, 200-dən çox artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dən çox hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası, S-300 zenit-raket qurğusu və digər texnika itirib. Bu itkilərin sayı gün ərzində bir qədər də artır. Düşmənin məhv edilən hərbi texnikası ilə yanaşı, geri çəkilərkən qoyub qaçdığı texnikalar da var. Mövcud vəziyyətdə erməni ordusu silah və digər hərbi ləvazimatların çatışmazlığı ilə üzləşib.

Ermənilərin "newsarmenia" saytı yazır ki, orduda siqaret və qəhvə tapılmır. Sayt ərzaqlarla yanaşı, gigiyena vasitələrinin belə qıtlığının olduğunu yazır.

Bütün bunlar ölkədə ciddi problemlərə yol açır.

Ermənistan hökuməti hazırda itkilərinin sayını gizlətsə də, bir neçə gün əvvəl yaralı hərbçi çoxluğundan ölkənin xəstəxanalarında xəstə qəbulu dayandırılıb. Eyni zamanda, Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir. İşğal olunmuş ərazilərimizdə yerləşən erməni hərbi birləşmələrinin maddi-texniki təminatında ciddi çətinliklər yarandığı barədə məlumatlar da təsdiqini tapıb. Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər. Eyni zamanda, hərbi birləşmələrdə xidmət edən əsgərlər arasında başıpozuqluq halları artır. Məsələn, əldə edilən məlumata əsasən, gecə döyüşləri zamanı geri çəkilən Madagizdəki Ermənistan silahlı qüvvələrinin 6-cı dağatıcı alayının əsgərləri arasında atışma baş verib. Bildirilir ki, şəxsi heyət arasında hökm sürən qorxu və vahimə hissi ruh düşkünlüyü yaradıb, ümumilikdə erməni hərbçilərinin demoralizə olmasına səbəb olub. Bundan əlavə, ermənilər mülki şəxslərinin vurulması ilə bağlı iddialarını özləri ifşa edib. Ermənistan hərbçiləri mülki şəxsləri qəsdən döyüş bölgəsinə cəlb edərək Azərbaycan Silahlı Qüvvələrinin guya mülki şəxslərə atəş açdığını iddia edir. Erməni mediasının kadrlarından aydın görünür ki, ermənilər artıq mülki şəxsləri döyüşlərə cəlb ediblər. Ordumuz belə atəş nöqtələrini darmadağın edəndə də, erməni təbliğat maşını bunu Azərbaycanın mülki əhaliyə qarşı həmləsi kimi qələmə verirlər. Artıq Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyən düşmən indi bu cür hiyləgərliyə əl atır. Erməni mediası isə istəməyərək də olsa, onların əsl üzünü ortaya çıxarıb.



Bütün bunların fonunda erməni siyasi rəhbərliyi başını itirib. Baş nazir Nikol Paşinyanın son açıqlamaları ermənilərin özünü belə təəccübləndirib. Məsələn, baş nazir əsgərlərə müraciətində ordumuzun hücumunu sərt adlandıraraq Qarabağ ermənilərini xilas olmaq üçün evlərindən çıxmağa səsləyir. Bununla yanaşı, Tovuzda başladığı hərbi əməliyyatlarda heç bir nəticə əldə edə bilməməsini əsaslandırmaq üçün təbliğat maşınını işə salaraq Azərbaycan Ordusunun nailiyyətlərinə kölgə salmaq məqsədilə aktiv şəkildə saxta məlumatlar yaymaqla məşğuldur.

Bu məlumatların spektri kifayət qədər genişdir. Hətta ən məlumatsız insanlarda belə, gülüş doğurur. Gah mövqe itirmədiyini, gah generalımızın əsir götürdüyünü, gah da itirmədiyi mövqelərini bərpa etməsi ilə bağlı saxta məlumatlar paylaşırlar. Bu məlumatlar aidiyyati qurumlar tərəfindən faktlarla inkar edilib. Saxta məlumatlar əsasən müxtəlif sosial şəbəkə səhifələrində və media orqanlarında yayılır. Aktiv şəkildə yayılan məlumatlarda ordumuzun uğurları digər ölkələrdən gətirilən muzdlularla əlaqələndirməyə çalışırlar. Dəfələrlə ən yüksək səviyyədə bu saxta məlumatlar təkzib olunsa da, ermənilər öz ampluasındadır.

Ermənistan hakimiyyəti sosial şəbəkələrə və mediaya girişə sərt qaydalar tətbiq etsə də, buna nail olmur. Məsələn, erməni sosial şəbəkəsində yayılan xəbərə görə, Madagizdə yerləşən 6-cı dağatıcı alayın komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin artilleriya atəşinə məruz qalıb və ağır yaralı olaraq sıradan çıxıb. Qeyd edilən hərbi hissə komandirinin yerinə 10-cu dağatıcı diviziyanın komandir müavini Gevorg Mangalaryan təyin edilib.

Qeyd edək ki, G.Mangalaryan 2016-cı il aprel döyüşləri zamanı döyüş meydanını özbaşına tərk etdiyi üçün ciddi şəkildə cəzalandırılıb. Lakin sonradan yüksək rütbəli qohumlarının müdaxiləsi nəticəsində yenidən bəraət qazanıb və müvafiq vəzifəyə təyin edilib. Məlumdur ki, Mangalaryan komandanlığın etimadını qazanmayıb, əsgərlər və kiçik zabitlər arasında nüfuzu yoxdur.

Sosial şəbəkələrin erməni seqmentindən məlum olur ki, düşmən ölkənin vətəndaşları təşviş içindədir. Onlar Paşinyanın istefasını tələb edir, Ermənistan MN-in mətbuat katibi Şuşan Stepanyanın yaydığı məlumata skeptik yanaşır və itkilərin açıqlanmamasına biganə qalmırlar. Mütəmadi olaraq, sosial şəbəkələrin erməni seqmentində yayılan həqiqi və real məlumatlar şok effekti yaradır. Qazaryan Marine adlı istifadəçi cəbhə zonasında ermənilərin kütləvi şəkildə qırıldığını yazır. Armen Man isə ölən ermənilər arasında bir məmur övladının, tanınmışın olmadığını yazır. Başqa biri "Niyə Tsarukyan, Köçəryan və s. kimi varlıların biclərini cəbhəyə aparmırsınız?" yazır. Hətta bəzi istifadəçilər Gürcüstanı ittiham edir. "Gürcüstana dincəlməyə getməyin, qoy acından ölsünlər" deyə, bir istifadəçi yazıb. Armine Darbinyan adlı istifadəçi "Dəhşətlidir, 2000-2002-ci il təvəllüdlü nəslin əksəriyyəti yox olur" yazır. "Paşinyanın, generalların, nazirlərin və oliqarxların oğulları gedib şəkil çəkdirirlər və hamıya bildirirlər ki, döyüşürlər. Niyə nə vaxtsa hansısa bir rəsminin və varlının oğlu ölməyib? Çünki mövqeyə getməyiblər və döyüşməyiblər" başqa bir istifadəçi yazır.



"2008-ci ildə rus-gürcü müharibəsi partlayanda gürcülər üçün yeganə xilas İrəvanın hava limanı idi". Bunu isə "facebook" səhifəsində erməni ictimai xadim, tarixçi Qarabağtsyan yazıb. "Bizim sərhədimiz onlar üçün açıq idi... İndi onlar bütün hava və quru yollarını bizə qarşı bağlayıblar və səxavətli şəkildə vasitəçi rolunu üzərlərinə götürməyə çalışırlar... Kədərlidir, çox kədərlidir", - deyə o qeyd edib.

"Hraparak" nəşrində dərc olunan məqalədə isə bildirilir ki, "bir çoxları müharibə zəminində dividentlər qazanmağa çalışırlar". Müəllif yazır ki, bu qruplar vətən və vətənpərvərlik barədə danışacaq, ağlayan mətnlər səsləndirəcək, cəbhəyə getməyə və vətən naminə ölməyə necə hazırlaşdığı haqqında danışacaq, döyüş sahəsinə gedənlər fonunda və ya Xankəndi meydanında şəkil çəkdirəcək, lakin nə döyüşə gedəcək, nə öləcək, nə də bunun əslində nə olduğunu başa düşəcək. "Biz isə emosional və sözlə aldanan xalqıq. Çox az adamlar qəhrəmanları populistlərdən fərqləndirməyə qadirdir. Bir aktyor oyunu, duyğusal bir çıxış, hərbi forma geyinmiş bir iqtidarçı bizi sakit şəkildə aldada və yoldan çıxara bilər", - deyə nəşr qeyd edib.

"Nikol Paşinyana ya xahiş edərək, ya da zorla izah etmək lazımdır ki, o, Qarabağ məsələsi ilə bağlı ümumiyyətlə heç bir fikir bildirməməli, xüsusən də beynəlxalq media ilə görüşdən çəkinməlidir. "Rossiya-1" telekanalına verdiyi müsahibədə o, bunu inadla sübut etdi. Hətta BBC müxbiri tərəfindən alçaldılması ona dərs olmadı". Bu ifadəni Ermənistan parlamentinin keçmiş deputatı Ruben Akobyan sosial şəbəkə səhifəsində paylaşdığı, Paşinyana ünvanlanan mesajda yazıb. Paşinyana müraciətlə "Kəs səsini" yazan Akopyan, həmçinin Dağlıq Qarabağdakı vəziyyətə toxunub: "Mövcud eskalasiyanın səbəbi Pşinyanın "Qarabağ - Ermənistandır" populist şüarı, həmçinin baş nazirin danışıqlar prosesindən imtina etməsidir. Erməni cəmiyyətinin respublika rəhbərinin siyasətindən narazılığı tamamilə əsaslıdır. Paşinyan hakimiyyətə gəldiyi ilk günlərdən bəri Ermənistanı daha bərbad vəziyyətə salıb. Qısa müddət ərzində bir sıra dövlətlərlə, o cümlədən KTMT və Aİ tərəfdaşları ilə münasibətləri xeyli korlayıb.

Bununla yanaşı, Ermənistanın "əsas siması" elementar tarixi faktları bilmədiyini və ümumiyyətlə yüksək səviyyədə əsaslandırılmış söhbət apara bilməmə qabiliyyətini dəfələrlə nümayiş etdirib!"

"Hraparaq" nəşri isə yazır ki, işğalçı Ermənistanın dövlət qurumları iflic vəziyyətinə düşüb. Nəşrin yazdıqlarına görə, Ermənistandakı dövlət qurumları bir-biri ilə koordinasiyalı şəkildə işləyə bilmir. Yazıda vurğulanır ki, parlament tələm-tələsik hərblə ilə bağlı ard-arda qanunlar qəbul edilir. Oxunuşlar ixtisara salınır. Fövqəladə Hallar Nazirliyi və digər güc strukturları da pərakəndə, dağınıq fəaliyyət sistemi ilə yadda qalır. Qeyd edilir ki, Ermənistandakı dövlət qurumları aktiv müharibə şəraitində bir-biri ilə rabitəli işləyə bilmirlər.

Ermənistanın VETO ictimai-siyasi hərəkatının rəhbəri Narek Malyan öz "facebook" səhifəsində yazıb ki, "Qriqor Lusavoriç xəstəxanası 50 nəfərin qida zəhərlənməsini (hamilə qadınlar və koronaviruslu xəstələr daxil) nəzərə alaraq Artlanç şirkəti ilə müqaviləyə xitam verib". "Xatırladım ki, Artlanç Ermənistan ordusunun qida tədarükçüsüdür. Ordu Artlançdan qida almağa davam edir, çünki əsgərlər qidalanmaqdan imtina edə bilməzlər", - deyə o qeyd edib.

Beləliklə, görünən odur ki, hərbi xunta nə qədər məhdudiyyət tətbiq etsə də, erməni cəmiyyəti narazılığını müxtəlif vasitələrlə çatdırmağa çalışır. Və nəzərə alaq ki, hələ hərbi əməliyyatlar bir neçə gündür ki, davam edir. Əgər proseslər uzanarsa, bunun daha ağır nəticələri olacaq. Narazılıqlar, etiraz aksiyaları daha da artacaq. Çıxış yolu isə birdir - Ermənistan işğal etdiyi torpaqlardan rədd olub getməlidir. Əks təqdirdə, hər bir erməni ailəsi bu müharibənin təsirini öz ailəsində hiss etmiş olacaq.

**Azər NURİYEV**